No: 03 2025
https://doi.org/10.64400/ea25-3-17
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

## İQTİSADİYYAT

# AZƏRBAYCAN VƏ ÇİN ARASINDA TİCARƏT ƏLAQƏLƏRİ VƏ ONUN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Xəyyam CAVADZADƏ**

Azərbaycan Dövlət İqtisad Universiteti
**Yazışılan müəllif:* cavadzada.xayyam@unec.edu.az

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi:* *01.09.2025*
*Nəşr edilmə tarixi:* *28.10.2025*

**AÇAR SÖZLƏR:**
ticarət əlaqələri, ticarət dövriyyəsi, İpək yolu, "Bir kəmər, bir yol" layihəsi, Şanxay Əməkdaşlıq Təşkilatı.

**XÜLASƏ**

Tədqiqatın məqsədi – Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ticarət əlaqələrinin tarixini, onun mövcud vəziyyətini araşdırmaq, bu sahədə hər iki ölkə tərəfindən dəstəklənən "Bir kəmər, bir yol" layihəsinin ölkəmiz üçün faydalılığını və ticarət əlaqələrinin inkişaf perspektivlərini təhlil etməkdir.
Tədqiqatın metedologiyası – tədqiqat zamanı elmi abstraksiya, sistemli analiz, sistemli yanaşma, müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, cədvəl kimi tədqiqat metodlarından istifadə edilmişdir.
Tədqiqatın tədbiqi əhəmiyyəti – "Bir kəmər, bir yol" təşəbbüsünü Azərbaycanın ticarət-iqtisadi maraqları aspektindən araşdıran elmi-tədqiqat işlərinin məhdud sayda olması tədqiqatın tədbiqi əhəmiyyətini müəyyən edir. Azərbaycanın Çin ilə əlaqələrinin genişləndirilməsi ölkəmizin yeni tarixi yüksəlişi mərhələsində müasir inkişafın təmin edilməsinə təkan verə və ticarət dövriyyəsinin həcminin artırılmasını təmin edə bilər.
Tədqiqatın nəticələri – Azərbaycan–Çin ticarət əlaqələri, eləcə də "Bir kəmər, bir yol" təşəbbüsü Azərbaycan prizmasından strateji cəhətdən təhlil edilmişdir. Tədqiqatda əldə edilən nəticələr Azərbaycanın Çin ilə əlaqələrinin tədqiqi ilə məşğul olan şəxslərin və geniş ictimaiyyətin məlumatlılığını artırmağa, bu əlaqələrin əhəmiyyətini təbliğ etməyə və nəticədə ölkələrimiz arasında ticarət dövriyyəsinin həcminin artırılmasında stimul yarada bilər.
Tədqiqatın elmi yeniliyi – İlk dəfə olaraq müxtəlif təhlil metodlarından və ən son statistik məlimatlardan istifadə etməklə Azərbaycan–Çin ticarət əlaqələri, o cümlədən "Bir kəmər, bir yol" təşəbbüsündə ölkəmizin iştirakının inkişaf perspektivləri araşdırılmışdır.

## GİRİŞ

Məlum olduğu kimi Azərbaycanla Çin arasındakı əlaqələrin tarixi çox qədimdir. Bu tarixin kökləri qədim İpək yolunun fəaliyyətə başlaması dövrünə gedib çıxır. Azərbaycan qədim İpək Yolunun üzərində yerləşdiyinə görə ən qədim dövrlərdən onun Çin ilə ticarət-iqtisadi və eyni zamanda mədəni sahədə əlaqələri mövcud olmuşdur. Azərbaycanın əlverişli təbii-coğrafi mövqeyi onun Avropa və Asiya ölkələri ilə, o cümlədən Çin ilə əlaqələrinin yaranması və genişləndirilməsinə imkan vermişdir. Azərbaycanın əlverişli təbii-coğrafi mövqeyi ilə bağlı Ümummilli lider Heydər Əliyev demişdir: "Ölkələrimizi bir-birindən olduqca böyük məsafə ayırsa da, bizi belə bir cəhət birləşdirir ki, Çin də, Azərbaycan da Asiyada yerləşir. Digər tərəfdən, Çin

dünyanın ən iri dövlətidir, olduqca böyük miqdarda əhalisi, geniş ərazisi, çox güclü iqtisadi potensialı var, Azərbaycan isə Qafqazda yerləşən gənc müstəqil dövlətdir, onun 7 milyon nəfər əhalisi, 86 min kvadrat kilometr ərazisi var, buna baxmayaraq, kifayət qədər sanballı potensiala malikdir. Dediyim kimi, biz də Asiya qitəsindəyik, lakin bununla bərabər, Avropa ilə Asiyanın qovuşuğunda yerləşirik, necə deyərlər, həm Avropaya, həm də Asiyaya mənsubuq. Bu, Azərbaycan iqtisadiyyatının inkişafı baxımından da böyük əhəmiyyətə malikdir. Azərbaycan bütün Asiya ölkələri ilə, o cümlədən də Çinlə çoxdan əlaqələrə malikdir. Asiya ilə Avropanı birləşdirən bir növ körpü, o cümlədən ticarət körpüsü olmuşdur. Biz burada olduğumuz günlərdə ipək yolunu da, hələ XII-XIII əsrlərdən başlayaraq Azərbaycanla Çin arasında mövcud olmuş digər ticarət-iqtisadi əlaqələri də təsadüfi yada salmadıq. Bir sözlə, tarix və coğrafiya Azərbaycanla Çin Xalq Respublikası arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün çox əlverişli şərait yaratmışdır” [1].

Ölkəmiz müstəqillik əldə etdikdən sonra Azərbaycan-Çin iqtisadi-ticarət əlaqələrinin tədqiqi aktuallaşmış və bu istiqamətdə araşdırmalar artmağa başlamışdır. Akademik Z.Səmədzadənin “Çin qlobal dünya iqtisadiyyatında” elmi monoqrafiyasında Çin dövlətinin, əsasən, son onilliklərdə nail olduğu iqtisadi uğur və islahatlar tədqiqata cəlb olunmuşdur [2]. Monoqrafiyada müəllif Çin təcrübəsində iqtisadi islahatlarda radikallığa yol verilməməsi, mülkiyyət formalarının bir-birinə qarşı qoyulmaması, iqtisadiyyatda struktur islahatlarının mərhələlərlə aparılması, elmin iqtisadi inkişafı stimullaşdırması və son nəticədə dünyada analoqu olmayan inkişaf modelinin formalaşmasını haqlı olaraq vurğulamışdır. Əsər Çin iqtisadiyyatına həsr edilsə də, müəllif tərəfindən Çin-Azərbaycan əlaqələri, eləcə də Çində aparılan iqtisadi islahatlarla ölkəmizdə həyata keçirilən uğurlu islahatların maraqlı üzləşməsi, müqayisəsi verilmişdir. Əsərlə tanışlıq ölkəmizdə Ulu Öndər Heydər Əliyevin ideyalarının uğurla həyata keçirilməsi, eləcə də möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda iqtisadi islahatların tədricən aparılması, sosialyönümlü mahiyyət daşıması, investisiya siyasətinin geniş vüsət alması və digər mühüm aspektlər barədə oxucuda dolğun təsəvvür yaradır. Əsərdə Çinin timsalında dövlətin iqtisadiyyata hansı dərəcədə müdaxiləsi, habelə bu mütərəqqi təcrübənin inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatında tətbiqi də xüsusi araşdırılmışdır.

Azərbaycan-Çin əlaqələrinin digər tədqiqatçılarından B. Budaqovun, R. Talıbovun, E. Mirbəşiroğlunun, M. Əhmədovun, E. Həbibzadənin, M. Həsənovanın adlarını xüsusilə qeyd etmək lazım gəlir. Onların apardıqları tədqiqatlarda və qələmə aldıqları əsərlərdə ölkələrimiz arasındakı çoxtərəfli iqtisadi-ticarət və mədəni əlaqələrin müxtəlif aspektləri öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan və Çin arasındakı iqtisadi və humanitar əlaqələr son illər sürətli inkişaf yoluna qədəm qoymuşdur. Bu inkişafın təkanverici amillərindən biri Çinin 2013-cü ildə elan etdiyi “Bir kəmər, bir yol” təşəbbüsü olmuşdur. Bu təşəbbüsün əsas məqsədi Çinin Avrasiya regionundakı ölkələrlə ikitərəfli və çoxtərəfli iqtisadi-ticari əməkdaşlığının genişlənməsinə dəstək verməkdən ibarətdir.

İqtisadi, ticarət, maliyyə və digər sahələrdə xüsusi əhəmiyyəti ilə seçilən bu təşəbbüsü qədim İpək Yolu üzərində yeni dəyərləri formalaşdırmaqla, qloballaşmanın iqtisadiyyata mənfi təsirlərini azaltmağa imkan verən bir layihə kimi dəyərləndirmək lazımdır. Bu layihənin beynəlxalq səviyyədə yüklərin daşınmasına və regional inkişafa ciddi təkan verdiyini qeyd etmək lazımdır.

“Bir kəmər, bir yol” layihəsi

Azərbaycan “Bir kəmər, bir yol” layihəsini dəstəkləyərək özünün əlverişli coğrafi şəraiti, zəngin karbohidrogen ehtiyatları, iqtisadi potensialı və inkişaf etməkdə olan nəqliyyat-logistika sistemi ilə onun həyata keçirilməsində yaxından iştirak edir.

Hazırda Çinin elan etdiyi “Bir kəmər, bir yol” layihəsi dünyanın 150-dən artıq ölkəsi tərəfindən dəstəklənməklə bütün dünyanı əhatə edir. “Bir kəmər, bir yol” təşəbbüsü üzrə indiyə kimi üç Beynəlxalq Əməkdaşlıq Forumu keçirilib. Bu çərçivədə 1-ci Beynəlxalq Əməkdaşlıq Forumu 2017-ci ildə, 2-ci forum – 2019-cu ildə, 3-cü forum isə – 2023-cü ildə keçirilmişdir. 2019-cu ildə keçirilən 2-ci forumda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də iştirak və çıxış edib. O, öz çıxışında qeyd etmişdir ki, “Azərbaycan lap əvvəldən Çin tərəfindən irəli sürülmüş

“Bir kəmər, bir yol” təşəbbüsünü dəstəkləyib. Bu layihə yalnız nəqliyyat bağlılığını təmin etmir. O, həmçinin müxtəlif ölkələr arasında əlaqələri gücləndirir, dialoq və əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edir və beynəlxalq ticarət üçün yeni imkanlar yaradır”.

“Bir kəmər, bir yol” təşəbbüsü nəqliyyat sahəsində yeni imkanlar açmaqla yanaşı, ticarəti, turizmi, xalqlar arasında təmasları təşviq edir və Avrasiya məkanında sabitliyin, təhlükəsizliyin və sülhün bərqərar olması işinə xidmət göstərir.

Azərbaycanın Çin ilə əlaqələrinin genişləndirilməsi ölkəmizin yeni tarixi yüksəlişi mərhələsində müasir inkişafın təmin edilməsinə təkan verəcəkdir. İnkişafın Çin modelinin dünya brendinə çevrildiyi indiki şəraitdə bu əlaqələrin gücləndirilməsi ölkəmizin qabaqcıl dövlətlərin səviyyəsinə çatdırılması üçün mühüm əhəmiyyət kəsb edir. Xüsusilə, Çinin süni intellekt, robotlaşma, rəqəmsal inkişaf və smart texnologiyaları sahələri üzrə dünya liderlərindən olması ölkəmiz üçün yeni əməkdaşlıq imkanları yaradır. Bununla yanaşı, ölkəmizin nəqliyyat-logistika strategiyasının Çinin “Bir kəmər – bir yol” layihəsi ilə bir-birini tamamlaması da orta nəqliyyat dəhlizinin yaradılması üçün birgə səylərin inkişaf etdirilməsinə imkan verir.

Azərbaycanın Çin ilə əlaqələrinin inkişafında ticarət hələ ki, əsas yer tutur. İki ölkə arasındakı ticarət əlaqələri yüksək inkişaf dinamikasına malikdir. Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasındakı 2005-2023-cü illərdəki ticarət dövriyyəsinin dinamikası 1 saylı cədvəldə əks olunmuşdur.

***Cədvəl 1.* Azərbaycan ilə Çin arasındakı ticarət dövriyyəsinin dinamikası (min ABŞ dolları)**

| İllər / Göstəricilər | 2005 | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| Azərbaycan – cəmi | 8558,4 | 27960,8 | 21945,8 | 24464,7 | 33911,2 | 52686,5 | 51183,9 |
| o cümlədən: ÇXR | 273,1 | 926,5 | 565,1 | 1846,8 | 1780,7 | 2158,7 | 3101,6 |
| %-lə | 3,2 | 3,3 | 2,6 | 7,5 | 5,3 | 4,1 | 6,1 |

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet saytı - www.azstat.org (21.10.2024) [3].

1 saylı cədvəldən göründüyü kimi, təhlil edilən dövrdə Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi bütövlükdə 6,0 dəfə, o cümlədən ÇXR ilə ticarət dövriyyəsi – 11,4 dəfə artmışdır. ÇXR-nın Azərbaycanın xarici ticarət dövriyyəsində payı tədqiq edilən dövrdə müsbət dinamikaya malik olmuşdur (pandemiya dövrünə düşən 2020-ci il istisnalıq təşkil edir).

Tədqiq edilən sonuncu 2023-cü ildə Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında ticarət dövriyyəsinin həcmi 3101,6 min ABŞ dollarına bərabər olmuşdur və həmin il Azərbaycanın xarici ticarət dövriyyəsinin 6,1%-ni təşkil etmişdir. Bu göstərici 2005-ci il illə müqayisədə 2,9 bənd yüksəlmişdir. Çin Azərbaycanla ticarət dövriyyəsinin həcminə görə İtaliya, Türkiyə və Rusiyadan sonra 4-cü yeri tutur.

Göründüyü kimi, iki ölkə arasında ticarət dövriyyəsinin müşahidə edilən artımı nəticəsində Çin Azərbaycanın əsas ticarət tərəfdaşlarından birinə çevrilib. Bunun əsas səbəbi isə Çində qiymət artımının olmamasıdır. Azərbaycanın məhsul idxal etdiyi digər ölkələrdə devalvasiya müşahidə edilməkdədir. Çində isə qiymətlər durğunluq dövründədir ki, bu da Çindən məhsul gətirməyi sərfəli edir. Qiymət artımının Çində aşağı səviyyədə olması cəlbediciliyini artırır. Bu amillər Azərbaycanla Çin arasında ticarət dövriyyəsinin artmasına səbəb olur.

Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında ticarət əlaqələrinin idxal-ixrac əməliyyatları üzrə təhlili xarici ticarət dövriyyəsinin mənfi saldoya malik olmasını aydın göstərir *(Cədvəl 2)*.

*Cədvəl 2.*Azərbaycan ilə Çin arasındakı idxal-ixrac əməliyyatları

**(min ABŞ dolları)**

| **İllər / Göstəricilər** | **2005** | **2010** | **2015** | **2020** | **2021** | **2022** | **2023** |
|---|---|---|---|---|---|---|---|
| Azərbaycan üzrə bütövlükdə: | | | | | | | |
| İdxal | 4211,2 | 6600,6 | 9216,7 | 10732,0 | 11703,2 | 14539,8 | 17285,3 |
| İxrac | 4347,2 | 21360,2 | 12729,1 | 13732,6 | 22208,0 | 38146,7 | 33898,6 |
| Saldo | -136,0 | -14759,6 | -3512,4 | -3000,6 | -10504,8 | -23606,9 | -16613,3 |
| Azərbaycan və Çin arasında: | | | | | | | |
| İdxal | 173,8 | 587,6 | 511,9 | 1414,0 | 1639,5 | 2085,9 | 3022,8 |
| %-lə | 4,1 | 8,9 | 5,6 | 13,2 | 14,0 | 14,3 | 17,5 |
| İxrac | 99,2 | 338,9 | 53,2 | 432,8 | 141,1 | 72,8 | 78,7 |
| %-lə | 2,3 | 1,6 | 0,4 | 3,2 | 0,6 | 0,2 | 0,2 |
| Saldo | 74,6 | 248,7 | 458,7 | 981,2 | 1498,4 | 2013,1 | 2944,1 |

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet saytı - www.azstat.org (21.10.2024) [3].

Azərbaycan ilə Çin arasındakı xarici ticarət dövriyyəsinin mənfi saldosunun həcmi tədqiq edilən 2005-2023-cü illər ərzində əhəmiyyətli dərəcədə – 39,5 dəfə artmışdır. Bu cür kəskin yüksəliş Çindən Azərbaycana idxalın yüksək artım dinamikası ilə izah oluna bilər. Belə ki, 2005-ci ildə ÇXR-dan Azərbaycana idxalın həcmi 173,8 min ABŞ dollarından 2023-cü ildə 3022,8 dollara çatmışdır. ÇXR-dan idxalın həcmi həmin dövrdə 17,4 dəfə yüksələrək Azərbaycanın cəmi idxalının 17,5%-ni təşkil etmişdir. Çin Azərbaycan idxalında Rusiyadan sonra 2-ci yeri tutmuşdur. Qeyd etmək lazımdır ki, 2024-cü ilin ilk 9 ayının yekunlarına görə Çindən Azərbaycana idxal 2641,2 min ABŞ dollarına bərabər olmuş və Çin idxalın 18,04%-ni təşkil etməklə sıralamada Rusiyanı keçərək 1-ci yerdə qərarlaşmışdır [6].

Təhlil edilən dövrdə Azərbaycan Respublikasından ÇXR-a ixracın həcmi isə azalaraq 99,2 min ABŞ dollarından 78,7 min dollara düşmüşdür. ÇXR-a ixracın xüsusi çəkisi həmin dövrdə 2,3%-dən 0,2%-ə qədər azalmışdır.

### Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında birgə Bəyannamə

Azərbaycanla Çin arasında əməkdaşlığın inkişaf etdirilməsində 2024-cü il iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında birgə Bəyannamə" yeni səhifə açmışdır. Bəyannamədə öz əksini tapmış müddəalar ölkələrimizin bütün əsas inkişaf istiqamətləri üzrə səmərəli əməkdaşlıq layihələri hazırlayıb həyata keçirmələrinə tam təminat verir [4].

Bu bəyannamə bütün dünya üçün ciddi təhdidlər yaradan təhlükələrə qarşı birgə mübarizə aparmaqdan tutmuş, ölkələrimiz arasında ticarət-iqtisadi münasibətlər, sənayeləşmə, investisiya qoyuluşu və digər sahələrdə əməkdaşlıq üçün geniş perspektivlər açır. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin – Orta Dəhlizin salınmasının Çin tərəfindən dəstəklənməsinin Astana Bəyannaməsində öz əksini tapması "Bir kəmər – bir yol" çərçivəsinin əhatə etdiyi bütün sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinə tam təminat verir. Ona görə də Astana Bəyannaməsi

Azərbaycanla Çin arasında imzalanmış ilk strateji tərəfdaşlıq müqaviləsi kimi mühüm tarixi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü zamanı səsləndirdiyi aşağıdakı sözlər ölkələrimiz arasında əlaqələrin daha intensiv şəkildə inkişaf edəcəyinə əminlik yaradır: "Bu gün qəbul edilən bəyannamə Çin Xalq Respublikasını və Azərbaycanı rəsmi olaraq strateji tərəfdaşlara çevirir. Hesab edirəm ki, bu böyük nailiyyətdir, həmçinin yüksək məsuliyyətdir. Biz gələcəkdə də fəal qarşılıqlı fəaliyyət göstərmək, ikitərəfli əlaqələri bütün istiqamətlər üzrə möhkəmləndirmək niyyətindəyik."

Bəyannamənin qəbul edildiyi iyul ayından başlayaraq Çinin Sian limanından Bakıya Orta Dəhlizlə gündə bir dəfə olmaqla müntəzəm konteyner blok qatarların göndərilməsinə başlanılıb. Qatarların Qazaxıstan və Xəzər dənizindən keçməklə təqribən 12 günə Bakıya çatması nəzərdə tutulur. Çindən Azərbaycana məhsulların belə qısa müddətə çatması isə logistika xərclərini azalmasına imkan verəcəkdir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il xam şəkər və şəkər idxalı, quş əti və onun əlavə məhsulları, mal əti, polad prokatı, hesablama maşınları, blok və qurğuları, məişət kondisionerləri, qara metallardan borular, sement və sement klinkerləri, məişət soyuducuları, tekstil və digər yüngül sənaye məhsullarının Çindən idxalında artım var. Çindən avtomobil daşıması isə 52 faiz artıb.

Bəyannaməyə daxil edilən bəndlər onun Azərbaycan və Çin üçün yeni və möhtəşəm inkişaf perspektivləri açdığını söyləməyə imkan verir. Belə ki, tərəflər iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin davamlı və dinamik inkişafını yüksək qiymətləndirir və ticarət, sərmayə və mühəndislik layihələri sahəsində qarşılıqlı fəaliyyəti daha da gücləndirmək üçün Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyası mexanizminin rolunu artırmağa davam etməyə, o cümlədən Azərbaycan-Çin ticarət-iqtisadi əməkdaşlığının yüksək səviyyədə inkişafına nail olmaq məqsədilə nəqliyyat və kommunikasiyalar, yaşıl enerji, emal və istehsal, infrastruktur, rəqəmsal iqtisadiyyat, kənd təsərrüfatı və s. sahələrdə layihələrin həyata keçirilməsinin təşviqinə diqqət yetirməyə hazırdırlar.

Azərbaycan və Çin sənayeləşmə və investisiya sahəsində əməkdaşlığı artırmaq üçün böyük potensiala malikdirlər. Bəyannamədə də qeyd olunduğu kimi, Azərbaycan və Çin sənayeləşmə və investisiya üzrə əməkdaşlıq mexanizmindən tam istifadə edəcək, hər iki ölkə şirkətlərinin fəaliyyətini dəstəkləyəcək, enerji, o cümlədən neft və qaz hasilatı və emalı, yaşıl enerji və nəqliyyat infrastrukturu, informasiya və telekommunikasiya, rəqəmsal iqtisadiyyat, əlvan metallar, tikinti materialları və s. kimi prioritet sahələrdə əməkdaşlığı fəal şəkildə təşviq edəcək, bazar iqtisadiyyatı prinsipi əsasında iki ölkə arasında əməkdaşlığı reallaşdıracaqlar. Bununla da hər iki ölkə və onların xalqları üçün faydalı nəticələr əldə edəcəklər.

Bəyannamədə öz əksini tapmış mühüm məqamlarda biri də "Orta Dəhliz" ilə bağlıdır. Çin tərəfi Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin ("Orta Dəhliz") tikintisində və istismarında fəal iştirak etməyə, Çin-Avropa və əksinə istiqamətdə cənub dəhlizinin yük qatarları üçün fasiləsiz işini və sürətləndirilmiş inkişafını birgə təşviq etmək məqsədilə Azərbaycanla və marşrut boyu yerləşən digər ölkələrlə daha sıx işləməyə, regional praktiki əməkdaşlığın dərinləşdirilməsi üçün əlverişli şərtlər yaratmağa, istehsal-təchizat zəncirlərinin təhlükəsizliyini və sabitliyini birgə təmin etməyə hazır olduğunu bildirmişdir.

Bəyannamədə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsinə Azərbaycanın ev sahibliyi etməsinə toxunulmuş, Çinin bu qərarı alqışladığı və Azərbaycanın Konfransda müsbət nəticələrin əldə olunmasının təşviqində sədrlik rolunu dəstəklədiyi qeyd olunmuşdur. Azərbaycan və Çin iqlim dəyişikliyi ilə mübarizədə əməkdaşlığı dərinləşdirməyə təşviq etməyə hazır olduqlarını bildirmişlər.

Məlum olduğu kimi, Azərbaycanın xarici siyasət kursunda müxtəlif beynəlxalq təşkilatlarda təmsilçilik xətti önəmli yer tutur. Bu xətti tutmaqla ölkəmiz siyasi-iqtisadi dividentlər qazanmağı nəzərdə tutur. Azərbaycan hazırda BMT, QH, TDT, İƏT, MDB kimi beynəlxalq qurumların üzvüdür və daha bir beynəlxalq təşkilata - BRİCS-ə qoşulmaq istəyir. Ölkəmiz artıq bu təşkilata

daxil olmaq üçün rəsmi müraciət edib. Qeyd etmək lazımdır ki, Almatı bəyannaməsinin sonuncu bəndi Azərbaycanın BRICS-ə daxil olmaq arzusunu ifadə edir və Çin BRICS əməkdaşlığında Azərbaycanın iştirakını alqışlayır.

Çin Xalq Respublikasının Sədri Si Sinpinin Astana şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə tarixi görüşü və onun Astana Bəyannaməsini ölkəmizin əlaqələrində "yeni bir başlanğıc", Azərbaycanı Çin üçün "yaxşı dost", "bərabərliyə və qarşılıqlı faydaya əsaslanan yaxşı tərəfdaş" kimi yüksək qiymətləndirməsi ölkələrimiz arasındakı əməkdaşlıq məsələlərində yaxın və uzaq gələcəyə böyük ümidlərlə baxmağa imkan verir.

## NƏTİCƏ

Qeyd etmək lazımdır ki, Astana Bəyannaməsinin imzalanmasından dərhal sonra, 2024-cü ilin iyulun 8-də Bakıda "Şanxay Əməkdaşlıq Təşkilatı Nümayiş Zonası - Azərbaycanda Logistika və Ticarətin Təşviqi Konfransı" keçirilib. Konfransda verilən məlumata görə 1995-2023-cü illərdə Çin Azərbaycana 930,8 miyon ABŞ dolları birbaşa investisiya yatırıb. Hazırda ölkəmizdə 245 Çin şirkəti sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət və xidmət sahələrində aktiv fəaliyyət göstərir.

İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədovun verdiyi məlumata görə indiyədək 10-a yaxın Çin şirkəti Qarabağ bölgəsində biznes qurmaq üçün müraciət edib. Onun sözlərinə görə, bu ərazilərdə inkişaf çərçivəsində həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları innovativ həllərdən istifadəni tələb edir: "Çin şirkətləri ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühitindən yararlana bilərlər. KOBİA-nın əsas hədəflərindən biri də Qarabağ ərazisində biznes sektorunun bərpasının dəstəklənməsidir. İşğaldan azad edilmiş ərazilərdə biznes qurmaq istəyən yerli və xarici sahibkarların biznes layihələri KOBİA tərəfindən toplanılmaqdadır. Burada prioritet sahələr tikinti, turizm, mədənçıxarma, nəqliyyat, kənd təsərrüfatı, istehsalat və digər sahələrdir" [5].

Hazırda Çin şirkətləri ölkəmizin neft, sənaye, energetika, maliyyə, bank, rabitə, İKT, kənd təsərrüfatı və qeyri-neft sektorunun müxtəlif sahələrində təmsil olunur və onların sayı 120-yə yaxındır. Azərbaycan Çinin 6 şəhərində ticarət evləri açıb, qeyri-neft istehsalımızın bu bazarlara çıxarılması üçün mühüm işlər görülür. Ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın, xüsusilə ticarət sahəsində əməkdaşlığın inkişaf etdirilməsi üçün böyük potensial imkanların mövcud olması qarşıdakı dövrdə Azərbaycan – Çin əlaqələrinin daha da genişlənəcəyini və bunun hər iki ölkə xalqlarının ümumi mənafeyinə xidmət edəcəyini söyləməyə əsas verir.

Sonda onu da qeyd etməyi vacib hesab edirik ki, bu məqalədə gündən-günə genişlənən Azərbaycan – Çin əlaqələrinin yalnız bəzi məqamlarına toxunmaqla müəyyən təsəvvür yarada bildik. Çoxtərəfli əlaqələrimizin real mənzərəsini yaratdığımızı iddia etmirik. Hesab edirik ki, bu sahədə tədqiq ediləsi və öyrənilməsi vacib olan bir çox məsələlər öz həllini gözləyir.

## ƏDƏBİYYAT SİYAHISI


1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Pekində Beynəlxalq Ticarətin İnkişafına Yardım Komitəsində çıxışı - 9 mart 1994-cü il. https://lib.aliyev-heritage.org/print.php?lang=az&page=2551039
2. Ziyad Səmədzadə. Çin qlobal dünya iqtisadiyyatında. Bakı, "Elm və Təhsil", 2009. – 608 səh. https://ebooks.az/az/book/BsLTrbKe
3. Azərbaycanın xarici ticarəti. Statistik məcmuə. Bakı, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. 2024. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/
4. Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə. 03 iyul 2024. https://president.az/az/articles/view/66389
5. https://report.az/biznes-xeberleri/orxan-memmedov-10-a-yaxin-cin-sirketi-qarabagda-biznes-qurmaq-ucun-muraciet-edib/
6. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikası Xarici Ticarətinin Gömrük Statistikası. Hesabat dövrü: 01.01.2024 – 30.09.2024. 37 səh. https://customs.gov.az/uploads/foreign/2024/2024_9.pdf?v=1729667469

*РЕЗЮМЕ*

## ТОРГОВЫЕ ОТНОШЕНИЯ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И КИТАЕМ И ПЕРСПЕКТИВЫ ЕГО РАЗВИТИЯ

**Джавадзаде Хайям**

**Цель исследования** – изучить историю торговых отношений между Азербайджанской Республикой и Китайской Народной Республикой, их нынешнюю ситуацию, проанализировать полезность проекта «Один пояс, один путь», поддерживаемого обеими странами в этой области. и перспективы развития торговых отношений.

**Методика исследования** – в ходе исследования использовались такие методы исследования, как научная абстракция, системный анализ, системный подход, сравнительный анализ, логическое обобщение, таблица.

**Прикладная значимость исследования** – ограниченное количество научно-исследовательских работ, рассматривающих инициативу «Один пояс, один путь» с точки зрения торгово-экономических интересов Азербайджана, определяет прикладную значимость исследования. Расширение отношений Азербайджана с Китаем может дать импульс для обеспечения современного развития и увеличения объёмов торгового оборота на этапе нового исторического подъёма нашей страны.

**Результаты исследования** – торговые отношения между Азербайджаном и Китаем, а также инициатива «Один пояс, один путь» были стратегически проанализированы с точки зрения Азербайджана. Результаты, полученные в исследовании, могут повысить осведомленность людей и широкой общественности, занимающихся изучением отношений между Азербайджаном и Китаем, повысить значимость этих отношений и, как следствие, создать стимул для увеличения объема Торговля между нашими странами.

**Научная новизна исследования** – Впервые с использованием различных методов анализа и новейших статистических данных исследованы торговые отношения между Азербайджаном и Китаем, в том числе перспективы развития участия нашей страны в инициативе «Один пояс, один путь».


**Ключевые слова**: торговые отношения, торговое обращение, Шелковый путь, проект «Один пояс, один путь», Шанхайская организация сотрудничества.



**SUMMARY**

## TRADE RELATIONS BETWEEN AZERBAIJAN AND CHINA AND ITS DEVELOPMENT PERSPECTIVES

**Javadzade Khayyam**

**The purpose of the study** – is to examine the history of trade relations between the Republic of Azerbaijan and the People's Republic of China, its current situation, to analyze the usefulness of the "One Belt, One Road" project supported by both countries in this field and the prospects for the development of trade relations.

**Research methodology** – during the research, research methods such as scientific abstraction, systematic analysis, systematic approach, comparative analysis, logical summarization, table were used.

**The applied importance of the research** – the limited number of scientific research works examining the "One Belt, One Road" initiative from the aspect of trade and economic interests of Azerbaijan determines the applied importance of the research. The expansion of Azerbaijan's relations with China can provide an impetus to ensure modern development and increase the volume of trade turnover in the stage of the new historical rise of our country.

**Research results** – Azerbaijan-China trade relations, as well as the "One Belt, One Road" initiative were strategically analyzed from the perspective of Azerbaijan. The results obtained in the research can increase the awareness of people and the general public who are engaged in the study of Azerbaijan's relations with China, promote the importance of these relations and, as a result, create an incentive to increase the volume of trade between our countries.

**Scientific novelty of the research** – For the first time, using various analysis methods and the latest statistical data, Azerbaijan-China trade relations, including the development prospects of our country's participation in the "One Belt, One Road" initiative, were examined.


**Keywords**: trade relations, trade circulation, Silk Road, "One Belt, One Road" project, Shanghai Cooperation Organization